# 13 iyul - Mübahilə günü İslamın həqqaniyyət günü bütün müsəlmanlara mübarək olsun!



Zilhiccə ayının iyirmi dördünə Mübahilə günü deyilir. “Təthir” ayəsinin nazil olduğu bu gündə Allah Əhli-beytin (ə) dəyər və fəzilətlərinə, onların həqiqi İslamı dərk və tanımaqdakı həqiqi mövqelərinə daha bir razılıq möhürü vurdu. . Əhli-sünnə və Əhli-beyt (ə) mənbələrinin məşhur və birinci əl mənbələrində çoxlu rəvayətlər vardır ki, onlar açıq-aydın deyirlər: Mübahilə ayəsi Həzrət Əli (ə), Həzrət Fatimə (s), İmam Həsən (ə) və İmam Hüseyn (ə) haqqında nazil olmuşdur.



**İmam Rza (ə) buyurub:**

Mübahilə günü heç kəsin Əhli-beytdən (ə) üstün olmadığı bir üstünlükdür.

**İran İslam İnqilabının Ali Məqamlı Rəhbəri Ayətullahul-Üzma Seyid Əli Xameneinin Mübahilə Günü Bəyanatı:**

# Mübahilə - Həqiqəti çatdırmağın vacibliyinin göstəricisi günü



Mübahilə günü İslamın əziz peyğəmbərinin (s) ən əziz şəxsiyyəti səhnəyə çıxardığı gündür. Mübahilə haqqında vacib məqam budur:

«و انفسنا و انفسکم» (“Özümüzü və özünüzü” – Qurani-Kərim, Ali İmran Surəsi 61-ci ayə) onun içindədir. «و نساءنا و نساءکم» (“Qadınlarımızı və qadınlarınızı” – Ali İmran Surəsi 61-ci ayə ) onun içindədir. Həzrət peyğəmbər (s) tərəfindən ən əziz insanlar seçilir və haqq ilə batil arasındakı fərqin və maarifləndirici bir göstəricinin hər kəsə ifşa edilməli olduğu bir mübahisə səhnəsinə çıxarılır. Dinin təbliği və həqiqətin ifadəsi yolunda heç vaxt olmamışdı ki, həzrət peyğəmbər (s) öz əzizlərinin, övladlarının, qızının və onun qardaşı və canişini olan Əmirəlmöminin əllərindən tutub meydanın ortasına gətirsin. Mübahlə gününün müstəsnalığı belədir. Yəni həqiqəti söyləməyin, həqiqəti çatdırmağın nə qədər vacib olduğunu göstərir. O, bu iddia ilə meydana çıxarır ki, gəlin mübahilə edək. Haqq ilə olan qalsın. Kim ki, haqqa qarşı çıxır Allahın əzabı ilə kökü kəsilsin!

# Mübahilə günü İslamın həqqaniyyət günüdür

Allahın adı ilə

## Mübahilə Günü İslam Dininin Ən Üstün Günüdür

**Peyğəmbərin (s) Nəcran xristianları ilə** mübahiləsi İslamın ilkin çağlarında baş vermiş hadisələrdəndir ki, Peyğəmbərin (s) dəvətinin haqq olduğunu bildirən nişanələrdən hesab olunur. Bu hadisə həm də Peyğəmbərin (s) və onunla mübahilədə birgə olanların, yəni İmam Əlinin (ə), Xanım Fatimənin (s.ə) və Həsəneynin (İmam Həsən və İmam Hüseynin) fəzilətinə dəlalət edir.

Əbu Rehan Biruninin hicri-qəməri tarixi ilə 707-ci ildə çap olunmuş "Asarul-baqiyyə" kitabının bir nüsxəsində Mübahilə hadisəsinin təsviri.

Ali-İmran surəsinin 61-ci ayəsi Mübahilə hadisəsində işarə etdiyi üçün Mübahilə ayəsi adı ilə məhşurdur. Şiələr inanırlar ki, Mübahilə ayəsində İmam Əli (ə) Peyğəmbərin (s) nəfsi və canı yerindədir və ona görə də bu ayəni İmam Əlinin (ə) fəzilətlərindən hesab edirlər. Bu hadisə şiə və sünni mənbələrində nəql edilmişdir.

Mənbələrə əsasən, Peyğəmbər (s) Nəcran xristianları ilə münazirə etdikdən və onlar iman gətirmədikdən sonra, həzrət onlara mübahilə etməyi təklif etdi və onlar da Peyğəmbərin (s) bu təklifini qəbul etdilər. Lakin təyin olunmuş gündə Nəcran xristianları Peyğəmbərin (s) ailə üzvlərini özü ilə gətirdiyini görüb mübahilə etməkdən imtina etdilər. Mübahilə, haqq olduğunu sübut etmək üçün Allahdan qarşı tərəfə qarğış və lənət etməsini istəməkdir ki, haqq olduğunu iddia edən iki tərəf arasında gerçəkləşir.

Bu hadisənin baş verdiyi il və gün barəsində müxtəlif fikirlər vardır. Tarixçilər arasında məhşur rəy budur ki, bu hadisə hicrətin 10-cu ilində baş verib. Həmçinin dua kitablarında Zilhiccə ayının 24-cü günü üçün Mübahilə günü başlığı altında əməllər qeyd edilmişdir.

Bu hadisə ilə bağlı yazılı və sənətsənətq əsərlər hazırlanmışdır. Onların arasında Əbu Reyhan Biruninin "Asarul-baqiyyə" adlı kitabının bir nüsxəsində (nəşr tarixi: hicri-qəməri 707) dərc olunmuş bir rəsmdir.

## Əhəmiyyəti

Ali-İmran surəsinin 61-ci ayəsi

Peyğəmbərin (s) Nəcran xristianları ilə mübahiləsi İslam peyğəmbərinin dəvətində haqq olduğunu sübut etmək üçün istifadə edilən hadisələrdəndir. Qurani-Kərim Ali-İmran surəsində bu hadisəyə toxunmuşdur. Həmçinin, bu hadisə beş kimsənin (Peyğəmbərin (s), Əlinin (s), Fatimənin (s.ə), Həsən (ə) və Hüseynin (ə)) fəzilətlərindən sayılır. Təfsir və tarix mənbələrində bu barədə qeyd olunmuşdur. Bu hadisə ilə bağlı yazılı və sənət əsərləri hazırlanmışdır.

## Hadisənin İzahı

Mübahilə hadisəsində Nəcran xristianların baş yepiskopu deyir: "Əgər Məhəmməd haqq olmasaydı, ən əziz adamları ilə birgə gəlməzdi və əgər bizimlə mübahilə etsə, il bitməmiş yer üzündə bir nəfər də olsun xristian qalmaz". Başqa bir rəvayətə görə, "Mən elə çöhrələr görürəm ki, əgər Allahdan bir dağı yerdən qopartmasını istəsələr, hər şübhəsiz, o dağ yerindən qopar. Buna görə də mübahilə etməyin, çünki həlak olacaqsınız və yer üzündə bir nəfər də olsun xristian qalmayacaq". (Zəməxşəri, Əl-kəşşaf, hicri-qəməri 1407-1416, səh.368-369)

İslam Peyğəmbəri (s) dünya hökumətlərinin başçılarına məktub yazmaqla bərabər Nəcran yepiskopuna da məktub yazaraq Nəcran sakinlərini İslamı qəbul etməyə dəvət etdi. Nəcran xristianlarını təmsil edən bir qrup Mədinəyə gedib Məscidun-Nəbidə İslam Peyğəmbəri ilə mübahisə etdilər. Peyğəmbər özünü təqdim etməklə yanaşı Həzrət İsanı (ə) Allahın bəndələrindən biri olduğu qeyd etdi. Onlar bunu qəbul etmədilər və İsanın atasız doğulmasını onun ilahiliyinin sübutu kimi qələmə verdilər.

Hər iki tərəf öz əqidələrinin doğru olmasına israr etdikdən sonra məsələyə mübahilə vasitəsilə son qoymaq qərara alındı. Buna görə də qərara alındı ki, ertəsi gün hammı Mədinə şəhərindən kənarda səhrada mübahiləyə hazırlaşsınlar. Mübəhilə gününün səhəri Peyğəmbər (s) İmam Əli (ə), Fatimə (s.ə), Həsən (ə) və Hüseyn (ə) ilə birlikdə Mədinədən çıxdı. Xristiyanlar Peyğəmbərin (s) ən əziz adamları ilə birlikdə mübahiləyə gəldiyini və mübahilə üçün peyğəmbərlər kimi diz üstə oturduqlarını gördükdə, mübəhilədən daşınıb sülh etmək istədilər. Peyğəmbər də cizyə vermələri şərti ilə onların bu istəyini qəbul etdi. Xristianlar Nəcrana qayıtdıqdan sonra heyətin böyüklərindən ikisi hədiyyələrlə Peyğəmbərin (s) hüzuruna gələrək müsəlman oldular. Sünni təfsir alimlərindən olan Fəxri Razi (vəfatı hicri-qəməri 606) deyir ki, təfsir və hədis alimləri bu hadisə haqqında həmfikirdirlər.

## Mübahilə Ayəsi

**Ali-İmran surəsinin 61-ci ayəsi mübahilə hadisəsinə işarə etdiyi üçün Mübahilə ayəsi adlanır:**

**فَمَنْ حَاجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَ أَبْنَاءَكُمْ وَ نِسَاءَنَا وَ نِسَاءَكُمْ وَ أَنفُسَنَا وَ أَنفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَتَ اللَّـهِ عَلَى الْكَاذِبِينَ**

**Buna görə də sənə elm (vəhy) gəldikdən sonra, hər kim onun barəsində (İsa Məsih (ə) haqqında) səninlə mübahisə etsə, höcətləşsə, ona de: Gəlin, biz öz oğullarımızı, siz öz oğullarınızı, biz öz qadınlarımızı, siz öz qadınlarınızı, biz özümüzü, siz də özünüzü çağıraq. Sonra (Allahın dərgahına) sızlayaq (yalvaraq), beləliklə Allahın lənətini yalançılara yağdıraq.**

Qazi Nurullah Şüştərinin dediyinə görə, təfsir alimləri həmfikirdirlər ki, Mübahilə ayəsindəki "Əbnaənə" (oğullarımız) Həsən və Hüseynə, "Nisaənə" Fatiməyə (s.ə), "Ənfusənə" isə İmam Əliyə (ə) aiddir. Həmçinin Əllamə Məclisi Mübahilə ayəsinin Ali-Əbanın şənində nazil olmasına dəlalət edən hədisləri mütəvatir hesab etmişdir. (Hicri-qəməri 1014-cü ildə yazılmış) "İhqaqul-həqq" kitabında təqribən altmışa yaxın əhli-sünnət mənbələrindən Mübahilə ayəsinin bu şəxslər barədə olduğunu açıq-aydın vurğulayan mənbə qeyd edilir.

Peyğəmbər (s): "Canım əlində olan Allaha and olsun ki, Nəcran əhlinin məhvi yaxın idi və əgər onlar mənimlə mübahilə etsəydilər, hamısı meymuna və donuza çevrilər və bütün bu vadi onlar üçün od olub onları yandırardı. Allah-təala bütün Nəcran əhalisini məhv edəcəkdi, hətta bir quş belə onların ağaclarında qalmayacaqdı və bütün xristianlar il bitməmiş öləcəkdilər". (Şeyx Müfid, Əl-irşad, h.q.1413, c.1,

səh.166-171.) Şiə imamları və həmçinin Peyğəmbərin bəzi səhabələri İmam Əlinin (ə) fəzilətlərini sübut etmək üçün bu ayəyə dəlil ünvanında istinad etmişlər.

## Zaman və Məkan

Tarixi mənbələrə əsasən, Mübahilə hadisəsi Peyğəmbərin (s) Mədinəyə hicrətdən sonra baş vermişdir. Amma onun baş verdiyi il və gün barədə müxtəlif fikirlər var. Şeyx Müfidə (vəfatı hicri-qəməri 413) görə, Mübahilə Məkkənin fəthindən sonra (yəni hicrətin 8-ci ilində) baş vermişdir. (Hicri-qəməri 303-cü ildə yazılmış) "Tarixi-Təbəri"də isə bu hadisənin hicrətin onuncu ilində baş verdiyi qeyd edilir. Məhəmməd Məhəmmədi Reyşəhrinin (vəfatı hicri-qəməri 1401-ci il ) "Fərhəngnameye mübahilə" kitabında dediyinə əsasən, məşhur tarixçilər bu hadisənin hicrətin 10-cu, bəziləri isə hicrətin 9-cu ilində baş verdiyini hesab edirlər.

Mübahilə günü haqqında da müxtəlif fikirlər var; Məsələn, Zilhiccə ayının 21, 24 və 25-də baş verməsi kimi. Şeyx Ənsari Zilhiccə ayının 24-nü məhşur rəy hesab edir. Həmçinin dua kitablarında Zilhiccə ayının 24-cü günü üçün xüsusi əməllər qeyd olunmuşdur. Şeyx Abbas Qumi "Məfatihul-Cinan" kitabında bu əməlləri qeyd etmişdir ki, qüsl almaq və oruc tutmaq da onlardan biridir.

## Məkan

Mübahilə hadisəsi Mədinədə baş verib. Amma onun dəqiq yeri məlum deyil. Bəqi yaxınlığında Mübahilə məscidi və Məscidul-ucacə kimi tanınan, zəvvarların mübahilə məkanı kimi ziyarət etdikləri bir məscid var. Amma deyirlər ki, tarixi mənbələrdə bu adda bir məscid qeyd edilməyibdir.[26] Şiə yazıçısı Məhəmməd Sadiq Nəcmi (vəfatı hicri-şəmsi 1390) bu məscidin Mübahilə ilə heç bir əlaqəsi olmadığına inanır və hesab edir ki, bu səh, ucacə və mübahilə anlayışının

oxşarlığından və həmçinin İbn Məşhədinin Mübahilə məscidində namaz qılmaqla bağlı tövsiyəsindən irəli gəlib.

İbn Məşhədi (vəfatı hicri-qəməri 610) "Əl-məzarul-kəbir" kitabında Mübahilə məscidindən söz açmış və orada namaz qılmağı tövsiyə etmişdir. Məhəmməd Sadiq Nəcminin sözlərinə görə, Mübahilə yerində məscidin olmamasının səbəbi Peyğəmbərin (s) həmin məkanda namaz qılmamasıdır, çünki müsəlmanlar Peyğəmbərin (s) namaz qıldığı bəlii olan yerlərdə məscid inşa edirdilər.

## Kitablar və Sənət Əsərləri

Mübahilə hadisəsi barədə çoxsaylı kitablar yazılmışdır ki onlardan bəzilərinə toxunuruq:

MəhəmmədƏli Əsgəri və MəhəmmədƏli Nəcəfinin yazdığı "Mənbəşenasiye vaqeeye mübahilə" kitabı; 1401-ci şəmsi ilində nəşr olunan bu kitabda bu mühabilə ilə bağlı müxtəlif dillərdə 80-ə yaxın kitab, 25 tezis, 100 məqalə və bir neçə proqram və media resursları oxuculara təqdim edilmişdir.

Məhəmməd Məhəmmədi Rəyşəhri və başqalarının qələmə aldığı "Fərhəngnameye mübahilə" əsəri (müxaliflərlə müqayisəetmə üsulu); Bu əsərdə əhli-sünnətin təfsir alimi Fəxri Razinin (vəfatı hicri-qəməri 606) və şiənin kəlam alimlərindən olan Şeyx Müfidin (vəfatı hicri-qəməri 413) nəqlinə əsasən Mübahilə hadisəsi haqqında məlumat verilmişdir. Həmçinin bu əsərdə Əhli-beytin bu ayəni müxaliflərə höccət gətirmələri və Mübahlə gününün əməlləri də qeyd olunmuşdur. Darul-Hədis nəşriyyatı bu əsəri 1395-ci şəmsi ilində 154 səhifədə çap etdirmişdir.

Louis Massinyunun qələmə aldığı “Mübahilə dər Mədinə” kitabı; Bu kitab 1378-ci şəmsi ilində Mahmud İftixarzadə tərəfindən tərcümə edilmiş və onun kitaba yazdığı müqəddimə ilə “Resaləte Qələm” nəşriyyatında çap edilmişdir.

Seyyid Məhəmməd Ələvinin yazdığı “Mübaheleye Sadiqin” əsəri. Qum, Nəğəmat, h.ş.1383

“Asare müntəxəbe cəşnvareye ədəbiye mübahele” Mübahilə sahəsində ilk müstəqil ədəbi əsər hesab olunur və Mübahilə Ədəbiyyat Festivalında təqdim olunan əsərlərin seçmələrini özündə ehtiva edir. Bu kitab iki hissəyə bölünür: “şeir” və “ədəbi nəsr”.

## Sənət Əsəri

Mübahilə hadisəsi ilə bağlı rəsmlər, animasiyalar və s. kimi sənət əsərləri də hazırlanmışdır. Bu əsərlərdən ən qədimi Əbu Rehan Biruninin “Asarul-baqiyyə” kitabının bir nüsxəsində yer almış bir rəsmdir. Bu nüsxə hicri-qəməri 707-ci ildə çap olunmuşdur və Fransada saxlanılır. Tarixçi Rəsul Cəfəriyanın sözlərinə görə, bu rəsm çox güman ki, kitaba nüsxəyazan (kopirayter) tərəfindən əlavə edilmişdir.

Əbu Rehan Biruninin əsərlərindən ibarət kitabın nüsxəsindəki Mubahilə hadisəsinin h.q 707-ci ilə aid bir rəsm




13 iyul- Mübahilə günü
İslamın həqqaniyyət günü
bütün müsəlmanlara
mübarək olsun!